

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

# POLİS

www.pq.mia.gov.az

polisazerbaycan

26 avqust 2021-ci il
Cümə axşamı

1933-cü ildən çıxır
№ 32 (3545)


# AZƏRBAYCAN SÜLHƏ TÖHFƏ VERMƏYƏ ÇALIŞIR

## Prezident İlham Əliyev: *“Biz artıq öz tarixi missiyamızı yerinə yetirdik”*

Azərbaycan Prezidenti İlham Əliyevin Türkiyənin “CNN Türk” televiziya kanalına müsahibəsi son günlərin ən əhəmiyyətli mövzularından oldu. Müsahibə Vətən müharibəsindəki tarixi qələbəmizdən keçən müddət ərzində yaranmış yeni reallıqları dəyərləndirmək və ortaya çıxan bir sıra suallara aydınlıq gətirmək baxımından diqqət çəkdi.



Xüsusən bu müsahibədə Azərbaycanın yaratdığı yeni reallıqlar dövründə Ermənistan rəhbərliyinə və ictimaiyyətinə yönələn konkret çağırışlar böyük maraq doğurdu. ***“Mən bir neçə dəfə öz sözümü açıq demişdim ki, biz istəyirik Ermənistanla sülh müqaviləsi imzalansın. Ermənistan və Azərbaycan bir-birilərinin ərazi bütövlüyünü tanısınlar və sərhədlərin delimitasiyası, yəni müəyyən edilməsi prosesi də başlasın. Ancaq bu günə qədər Ermənistandan müsbət cavab almamışıq. Belə görünür ki, Ermənistan buna hazır deyil, ya da bunun əleyhinədir. Mən söylədim ki, bu, böyük yanlışlıq olar və onlar özləri də peşman olacaqlar”***, - deyən Azərbaycanın dövlət başçısı vurğulayıb ki, biz bu təklifi masa üzərində əbədi saxlamalı deyilik. Prezidentin fikrincə, əgər Ermənistan bu təklifə etiraz edərsə, o halda ölkəmiz də öz siyasətini buna uyğun şəkildə aparacaq.

Dövlət başçısı İlham Əliyevin müsahibəsində diqqətə çatdırdığı faktlar, rəqəmlər vəziyyətin Azərbaycanın tam nəzarəti altında olduğunu göstərib.

Cənubi Qafqazda tətbiq edilə biləcək 3+3 formatı ilə bağlı məsələlərə də münasibət bildirən dövlətimizin başçısı belə bir əməkdaşlıq formatının Azərbaycan və Türkiyə tərəfindən dəstəkləndiyini söyləyib. Qeyd edib ki, regional işbirliyi, sabitliyin təmin olunması və gələcəkdə müharibə riskinin sıfra endirilməsi üçün bölgə ölkələri arasındakı əlaqələr çox önəmlidir. Azərbaycan Prezidenti Zəngəzur dəhlizinin və digər yolların açılması ilə yanaşı, Ermənistanla digər nəqliyyat layihələrimizin də olmasının, ticarət əlaqələrinin bərpasının mümkünlüyünü qeyd edib. Cənubi Qafqazda uzunmüddətli sülhün təmin edilməsi üçün bütün bunların çox önəmli məsələlər olduğunu bildirib. ***“Çünki biz artıq öz tarixi missiyamızı yerinə yetirdik. Bizə yeni müharibə lazım deyil. Rusiya sülhməramlı missiyasının nəzarətində olan ərazidə yaşayan ermənilər biz yolunu azmış Azərbaycan vətəndaşları sayırıq. Onların sayı o qədər də çox deyil. Dəqiq məlumata görə, 25 minin altındadır. Əlbəttə ki, onlar da Azərbaycan cəmiyyətinə inteqrə olunmalıdır. Azərbaycan çoxmillətli, çoxkonfessiyalı ölkədir və burada bir çox xalqlar yaşayır, bir ailə kimi yaşayır, o cümlədən ermənilər də yaşayırlar. Bu gün Bakıda erməni də var”.***

Ölkə rəhbəri Vətən müharibəsindəki tarixi qələbəmizdən sonra hazırda önümüzdəki strateji hədəfləri göstərib. Bəyan edib ki, indi yeni hədəflərimiz qələbəmizi daha da möhkəmləndirmək, Azərbaycanın təhlükəsizliyini təmin etmək, azad olunmuş torpaqları yenidən qurmaq və Ermənistanın revanşist qüvvələrinin baş qaldırmasına imkan verməməkdir. Azərbaycan bu hədəflərə də uğurla çatacaq.

## Baş Prokurorluğun və Daxili İşlər Nazirliyinin birgə məlumatı

Daxil olmuş məlumatlar və aparılan yoxlamalar nəticəsində paytaxt ərazisində yerləşən daha bir neçə tibb müəssisəsində pul müqabilində bəzi vətəndaşlara dair məlumatların vaksinasiya prosesindən keçmədən “e-TƏBİB” elektron qeydiyyat sisteminə yerləşdirilməsi və bununla da həmin şəxslərin guya vaksin olunmaları ilə bağlı saxta COVID-19 pasportu ilə təmin edilmələri məlum olub.

Həyata keçirilən ilk əməliyyat zamanı müəyyən olunub ki, Xəzər rayonu Binə qəsəbəsində yerləşən 29 saylı Birləşmiş Şəhər Xəstəxanasının tibb bacıları Ü.Abbasova, S.Allahverdiyeva, F.Nəhmətova, həmin müəssisənin kompüter qeydiyyatçıları Ə.Hüseynova, S.Dadaşzadə və Səbail rayonunda yerləşən 33 saylı Şəhər Poliklinikasının əməkdaşı Elnur Əliyevlə əlbir olaraq vətəndaşlardan 300 manat məbləğində pul alıb onların xəstəxanaya belə gəlmədən guya vaksinasiyadan keçib peyvənd olunmalarını özündə əks etdirən saxta sənəd təqdim ediblər. Bu şəxslərin eyni üsulla çoxsaylı vətəndaşlardan pul alaraq onları peyvənd olunmadıqları halda “e-TƏBİB” elektron qeydiyyat sistemində vaksin olunmuş şəxslərin siyahısına daxil etdikləri məlum olub.

Analoji hal Sabunçu rayonu Maştağa qəsəbəsində yerləşən 7 saylı Birləşmiş Şəhər Xəstəxanası və Yasamal rayonunda yerləşən 3 saylı Şəhər Poliklinikasında da aşkar edilib. Müəyyən olunub ki, həmin müəssisələrdə tibb bacıları işləyən S.Mahmudova və A.Bağırova hər doza vaksin üçün 50-100 manat müqabilində ayrı-ayrı vətəndaşlar barədə guya onların vaksin olunmalarını özündə əks etdirən saxta məlumatları “e-TƏBİB” elektron qeydiyyat sisteminə daxil ediblər. Bununla da adları çəkilən tibb bacıları tərəfindən pul aldıqları vətəndaşlara peyvənd olunmadan onlara vaksin vurulduğu barədə saxta sənədlər təqdim olunub.

Qeyd edilən faktlarla bağlı Daxili İşlər Nazirliyi Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin İstintaq və Təhqiqat İdarəsində istintaq araşdırmaları aparılır. İş üzrə əhəmiyyət kəsb edən halların, göstərilən qanun pozuntularında hər hansı formada iştirak etmiş digər şəxslərin müəyyənləşdirilməsi istiqamətində əməliyyat-istintaq tədbirləri davam etdirilir.

Baş Prokurorluq və Daxili İşlər Nazirliyi vətəndaşlara bir daha müraciət edərək koronavirus əleyhinə peyvənd vurulması, habelə COVID-19 testinin nəticələri ilə bağlı vətəndaşlara saxta sənəd verilməsi halları ilə üzləşdikdə “102” Xidməti-Zəng Mərkəzi, "961" nömrəli "Çağrı Mərkəzi", "161" nömrəli "Qaynar xətt" əlaqə mərkəzi, o cümlədən Baş Prokurorluğun və Daxili İşlər Nazirliyinin sosial şəbəkələrdəki səhifələri vasitəsilə məlumat verilməsini xahiş edir.

Qeyd edək ki, ölkəmizdə koronavirus pandemiyası əleyhinə aparılan vaksinasiya prosesinə qanunsuz yollarla müdaxilə edilməsi hallarına qarşı Baş Prokurorluq və Daxili İşlər Nazirliyinin əməkdaşları tərəfindən qanunvericiliklə nəzərdə tutulan qaydada sərt mübarizə tədbirləri bundan sonra da qətiyyətlə davam etdiriləcək.

*23 avqust 2021-ci il*

**Dövlətimizin başçısı avqustun 24-də BMT-nin ölkəmizdə yeni təyin olunmuş rezident əlaqələndiricisi xanım Vladanka Andreyevanı qəbul edib.**

***Prezident İlham Əliyev avqustun 24-də Belçika Krallığının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Mişel Pitermansın etimadnaməsini qəbul edib.***

**Prezident İlham Əliyev avqustun 25-də Azərbaycan Respublikasının Vətən Müharibəsi Qəhrəmanlarının və onların ailə üzvlərinin sosial-məişət şəraitinin yaxşılaşdırılması haqqında sərəncam imzalayıb.**

## 13 İLDƏN SONRA...

### *Qeyri-aşkar şəraitdə törədilən cinayətin üstü açılıb*

Baş Prokurorluq və Daxili İşlər Nazirliyinin birgə həyata keçirdiyi istintaq-əməliyyat tədbirləri nəticəsində 13 il əvvəl, yeni 2008-ci ildə Gəncə şəhər sakini, 1940-cı il təvəllüdlü Nəzərli Nadejda Dmitriyevnanın yaşadığı evdə qəsdən öldürülməsi faktı ilə bağlı istintaq olunan cinayət işinin üstünün açılması təmin edilmişdir.

Peşəkar prokurorluq və polis əməkdaşlarından ibarət istintaq-əməliyyat qrupu tərəfindən həyata keçirilmiş kompleks istintaq hərəkətləri və əməliyyat axtarış tədbirləri ilə müəyyən edilib ki, Gəncə şəhər sakinləri, 1986-cı il təvəllüdlü Salayev Seymur Mehman oğlu və dostu Qirin Şəhriyat Usaməddin oğlu Nadejda Nəzərlinin evinə daxil olub külli miqdarda pul və qızıl-zinət əşyalarını talamaqla bağlı razılaşaraq qabaqcadan əlbir olan bir qrup şəxs qismində birləşmiş, 13 may 2008-ci il tarixdə, saat təxminən 21:00 radələrində sonuncunun yaşadığı evin qarşısına gəlib mərhumu aldadaraq evinə daxil olmuş, qarşılıqlı söhbət edən zamanı planlaşdırdıqları özgənin əmlakını talama cinayətinin törədilməsini yüngülləşdirmək məqsədilə Ş.Qirin iki əli ilə Nadejda Nəzərlinin ağzından tutub özünə doğru çəkmiş, S.Salayev isə üzərində olan bıçaqla onun boğaz nahiyəsinə çoxsaylı xəsarətlər yetirməklə qəsdən öldürmüşdür.

Cinayət işi üzrə S.Salayev və Ş.Qirin cari il avqustun 23-də Cinayət Məcəlləsinin 120.2.1 (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən adam öldürmə), 120.2.4 (xüsusi amansızlıqla qəsdən adam öldürmə) və digər maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilərək barələrində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilmişdir.

Hazırda Baş Prokurorluğun İstintaq idarəsində cinayət işi üzrə intensiv istintaq-əməliyyat tədbirləri davam etdirilir.

*24 avqust 2021-ci il*

**Vətən müharibəsi zamanı Füzuli uğrunda şəhidlik zirvəsinə ucalmış cəsur silahdaşlarımızdan biri də kiçik gizir Məmmədov Anar Zəhəddin oğludur.**



# İlk və son döyüşü Füzuli istiqamətində oldu...

O, 1992-ci il oktyabrın 25-də Saatlı rayonunun Azadkənd kəndində doğulub. Təhsil aldığı Vüqar Əzimov adına Saatlı rayonu Qıraqlı kənd tam orta məktəbin 9-cu sinfini bitirən Anar Sabirabad rayonundakı Sosial-İqtisad Kollecinə qəbul olunub. 2012-ci ildə kolleci "Dövlət yol polisində inzibati hüquq fəaliyyəti-yol polisi müfəttişliyi" ixtisasına yiyələnib. Hələ uşaq yaşlarından idmana böyük marağı olduğundan, təhsil aldığı illərdə məşğul olduğu qaydasız döyüş və boks idman növləri üzrə dəfələrlə yüksək nəticələr göstərib, respublika çempionu adını qazanıb.

Müddətli həqiqi hərbi xidmətini 2012-ci ilin iyul ayından 2014-cü ilin yanvar ayınadək Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində keçib. Lakin hərbi xidmətə olan böyük marağı səbəbindən yenidən ordu sıralarına qayıdıb. Beləliklə, qısa fasilədən sonra, yəni 2014-cü ilin aprel ayından Daxili Qoşunların Lənkərandakı "N" saylı hərbi hissədə müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi yenidən Vətənə olan şərəfli borcunu vicdanla yerinə yetirməyə başlayıb. 2014-cü ilin dekabr ayından xüsusi təyinatlı dəstənin xüsusi həmlə qrupunda müxtəlif vəzifələrdə xidmətini davam etdirən Anar 2019-cu ilin dekabr ayından etibarən xüsusi həmlə qrupunda yarımqrup komandiri vəzifəsini şərəflə yerinə yetirib.

Əsl xüsusi təyinatlıya xas olan yüksək döyüş hazırlığı və əzmkarlığı ilə qazandığı "Zoğalı beret"i də hər zaman böyük qürur hissi ilə daşıyıb.

"N" saylı hərbi hissədə "Gürzə" şərti adını daşıyan xüsusi təyinatlı dəstənin komandiri mayor Cavid Tağıyev (Vətən müharibəsi zamanı Şuşa istiqamətində gedən döyüşlərdə yaralanıb) vaxtilə birgə xidmət etdiyi kiçik gizir A.Məmmədovu vətənpərvər, peşəkar hərbçi kimi xatırlayır.

***17 oktyabr 2020-ci il... Füzuli istiqamətində "Karyer" deyilən ərazidə gedən döyüş Anarın ilk və son döyüşü oldu.*** Onunla birgə bu döyüşdə iştirak etmiş "Gürzə" xüsusi təyinatlı dəstəsində yarımqrup komandiri, 3-cü dərəcəli "Rəşadət" ordeni, "Şuşanın azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmiş baş çavuş Kənan Kərimov cəsur silahdaşının döyüş meydanında göstərdiyi qəhrəmanlıq nümunələri ilə hər zaman qürur duyacağını bildirdi: "Füzuli istiqamətində qarşımıza düşmənin "Beton post" deyilən möhkəmləndirilmiş mövqelərini almaq tapşırığı qoyulmuşdu. Müxtəlif cinahlardan düşmən üzərinə hücum etmək üçün əməliyyat planına uyğun olaraq ayrı-ayrı qruplara bölünmüşdük. Bizim qrup kapitan Taleh Rüstəmlinin rəhbərliyi altında sağ cinahdan düşmən mövqeyi istiqamətində



hərəkətə başladı. İrəlilədiyimiz yollar olduqca təhlükəli idi. Buna baxmayaraq, tərkibində kiçik gizir A.Məmmədovun da olduğu qrupumuzun cəsur xüsusi təyinatlıları – gizirlər Aydın Rzayev, Məmməd Məsimov, baş çavuş Vüsal Xasməmmədov, çavuşlar Zamiq Ağayev, İlkin Abuyev, Elvin Abbasov, Heydər Heydərov və əsgər Fərid Seyfullayev (Şuşa istiqamətində gedən döyüşdə şəhid olub) düşməni məhv edib postu aldılar. Qorxuya düşən ermənilər xeyli sayda silah-sursatını, eləcə də artilleriya qurğularını postda atıb qaçmışdılar.

Növbəti tapşırığa uyğun digər qrupumuzla birləşib yenidən hücumu davam etdirmək üçün hərəkətə başladıq. Artıq axşam düşmüşdü. Qruplar arasında xeyli məsafə vardı. Hərəkətdə olduğumuz vaxt qəfildən erməni silahlılarının pusqusuna düşdük. Şiddətli atışma başladı. Bir müddət vuruşduqdan sonra düşmən güllesinə tuş gələn cəsur silahdaşımız kiçik gizir Anar Məmmədov qəhrəmancasına şəhid oldu..."

Kiçik gizir A.Məmmədov 2020-ci il oktyabrın 18-də Saatlı rayonunun Qıraqlı kənd qəbiristanlığında dəfn olunub. Solmaz adlı bir qız övladı yadigar qalıb.

Azərbaycan Respublikası Prezidentinin 15 və 25 dekabr 2020-ci il tarixli müvafiq sərəncamları ilə hərbi qulluqçumuz (ölümündən sonra) "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilib.

Qeyd edək ki, Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazovun diqqət və qayğısı nəticəsində şəhid hərbi qulluqçumuzun qardaşı Azər Məmmədov daxili işlər orqanlarında xidmətə qəbul edilib. A.Məmmədov hazırda Saatlı Rayon Polis Şöbəsində Post-Patrul Xidməti Bölüyünün polis nəfəridir.

*mayor Anar Əhmədov*

# Bizə əmanət ŞƏHİD ÖVLADLARI

## "Mənim atam qəhrəmandır" adlı tədbirdə DİN əməkdaşları da iştirak edib



**Azərbaycan Respublikasının Müdafiə Nazirliyi və Daxili İşlər Nazirliyinin dəstəyi, "Fire Land Production"ın təşkilatçılığı ilə Vətən müharibəsində şəhid olmuş qəhrəmanların övladları üçün "Mənim atam qəhrəmandır" adlı layihənin növbəti - sayca 5-ci tədbiri baş tutub.**





"Dağüstü Park" ərazisində keçirilən tədbirin məqsədi torpaqlarımız uğrunda canından keçən qəhrəmanlarımızı anmaq, onların övladlarına dövlətimizin qayğısının, xalqımızın sevgisinin daimi olacağını bir daha hiss etdirmək, şəhid balalarının səmərəli istirahətini təşkil etmək olub.

Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının nümayəndələri də tədbirə dəvət edilib.

Müdafiə Nazirliyinin Təlim Tədris Mərkəzindən start götürən tədbirdə ekskursiya avtobuslarında şəhid atalarının rəsmi həkk olunmuş geyimlərdə şəhəri gəzən uşaqlar "Zəfər marşı"nı ifa ediblər.

Daha sonra başlayan rəsmi hissədə Müdafiə Nazirliyinin Sosial Müdafiə Şöbəsinin rəisi, polkovnik Həbib Məmmədov, Bakı Şəhər Gənclər və İdman Baş İdarəsinin rəisi Raqif Abbasov, "Fire Land Production"un rəhbəri Cəlal Qurbanov, **Daxili İşlər Nazirliyinin Mətbuat Xidmətinin rəis müavini, polis polkovnik-leytenantı Hafiz Təmirov,** Xalq artisti Nurəddin Mehdixanlı və ilahiyyatçı Zaur Məmmədov çıxış ediblər. Onlar Vətən uğrunda canından keçmiş oğullarımızın övladlarının hər birimiz üçün qiymətli əmanət olduğunu, uşaqların işıqlı gələcəyi naminə əlimizdən gələni etməyin vacibliyini qeyd ediblər. Dövlət başçısı, Ali Baş Komandan cənab İlham Əliyevin böyük həssaslıq və sevgiylə yanaşdığı şəhid ailələrinin hamımızın əzizi, doğması olduğu, xalqımızın da hər zaman qəhrəmanlarımızın ailələrinə dərin ehtiram göstərdiyi xüsusilə vurğulandı.

Tədbirin fəxri qonağı Əməkdar artist Sevda Ələkbərzadə şəhid övladları, qəhrəmanlarımızın anaları, ailə üzvləri ilə öz hisslərini bölüşüb. Onun ifa etdiyi "Sən yadıma düşəndə" mahnısı duyğulu anlar yaşadıb.

Sonda "Əbədi Məşəl" abidə kompleksində qəhrəmanlarımızın övladları Əməkdar artistimiz və Olimpiya çempionlarımız ilə birlikdə "Zəfər" marşını oxuyaraq, səmaya ağ göyərçinlər uçurub, dünyaya "Müharibə olmasın! Uşaqlar atasız qalmasın!" mesajı göndəriblər.

Tədbirin sonunda şəhid övladlarına "Xarı Bülbül" döş nişanı hədiyyə olunub.

Qeyd edək ki, bu layihənin Azərbaycanın digər bölgələrində, eləcə də işğaldan azad edilmiş ərazilərdə keçirilməsi nəzərdə tutulub.

# Təbrik məktubları ünvanlanıb

**DİN-nin Polis Akademiyasının bu ilin sentyabrında yaranmasının 100 illiyini qeyd edəcək. Yarandığı gündən şərəfli xidmət yolu keçən Akademiyanın fiziki cəhətdən sağlam, intellektual səviyyəli, müasir tələblərə və təhdidlərə cavab verən peşəkar hüquqşünas kadrların hazırlanmasında xüsusi rolu var.**



Yeri gəlmişkən, Akademiyanın əməkdaşlıq etdiyi xarici dövlətlərin ali və xüsusi təyinatlı təhsil müəssisələrinin rəhbərləri yubiley münasibətilə təbrik ünvanlayıblar.

Rusiya Daxili İşlər Nazirliyinin Krasnodar universitetindən, Nijeqorodskaya Akademiyasından və Belarus Daxili İşlər Nazirliyinin Moqlevskiy institutundan daxil olan təbrik məktublarında böyük inkişaf yolu keçən Polis Akademiyasının maddi-texniki bazasının əhəmiyyətli dərəcədə güclü, müasir infrastruktura malik, müasir texnologiyalarla təchiz edilən təlim-tədris mərkəzi olduğu vurğulanıb. Həmçinin, ölkədəki daxili sabitliyin, ictimai qaydanın və ictimai təhlükəsizliyin təmin edilməsində, cinayətlərin, hüquqazidd əməllərin qarşısının alınmasında, eləcə də vətəndaşların konstitusion haqlarının qorunmasında bu təhsil ocağının yetirmələrinin hazırlıq, peşəkarlıq səviyyələrinin təqdirəlayiq olduğu qeyd edilib.

Sözügedən ali və xüsusi təyinatlı təhsil müəssisələrinin rəhbərləri Polis Akademiyasının şəxsi heyətini bir daha yubiley münasibətilə təbrik edərək bundan sonra da üzərilərinə düşən öhdəlik və vəzifələri layiqincə yerinə yetirəcəyini əminliklə ifadə ediblər.

*Teymur Əlizadə, polis mayoru*

# Bizə yazırlar...

**Astara rayon sakini Əhmədşah Quliyev** DİN-ə ünvanladığı təşəkkür məktubunda yazır: "Vətəndaş müraciətlərinə həssaslıqla yanaşılması bizdə olan güvəni daha da artırır. Problemimlə bağlı müraciətimə operativ və obyektiv şəkildə baxılaraq müsbət həllini tapmasında göstərdikləri köməkliyə görə Azərbaycan Polisinə minnətdarlığımı bildirirəm".

**Quba rayon sakini Rövşən Sultanov** ictimai qaydanın və təhlükəsizliyin təmin olunmasında, hüquqazidd əməllərin qarşısının alınmasında, o cümlədən narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizədə peşəkarlıq nümayiş etdirdiklərinə görə Quba Rayon Polis Şöbəsinin əməkdaşlarının fəaliyyətini yüksək dəyərləndirir.

**Bərdə rayon sakini Bəylər Teymurov** DİN rəhbərliyinə ünvanladığı təşəkkür məktubunda şəhid ailələrinə, qazilərə, müharibə iştirakçılarına göstərilən diqqət və qayğıya görə daxili işlər orqanlarına minnətdarlığını ifadə edir.

**Goranboy rayon Aşağı Ağcakənd qəsəbə sakini Vahid Əliyev** övladının daxili işlər orqanlarında xidmətə qəbul olunması zamanı göstərdikləri köməkliyə görə DİN rəhbərliyinə minnətdarlığını yazır.

**Bakı şəhər sakini Cəmil Fətəlizadə** isə itirdiyi pul qabı ilə əlaqədar müraciətinə həssaslıqla yanaşıldığına və qısa zaman kəsiyində tapılaraq ona təhvil verilməsində göstərdikləri köməkliyə görə Səbail RPİ 39-cu Polis Bölməsinin əməkdaşlarına təşəkkür edir.

*"Polis"*

# POLİS İCTİMAİYYƏTƏ AÇIQDIR

## Sosial media ictimaiyyətlə əlaqələrin qurulmasında polisə yeni imkanlar qazandırıb

**Bu gün hər bir vətəndaşın məhz sosial şəbəkə hesabları ilə birbaşa istənilən quruma müraciət etmək imkanı dəfələrlə artıb, asanlaşıb. Hətta o dərəcədə ki, bəzən özünə aid olmayan problemləri də sosial şəbəkə istifadəçisi geniş auditoriyaya təqdim edir, ictimai nəzarət funksiyasını təkbaşına həyata keçirir.**

Vətəndaşların belə müraciətlərinə adekvat reaksiya verilməsi, operativ cavablandırılması ilə seçilən Daxili İşlər Nazirliyi bu mənada ictimaiyyətə ən açıq qurumlardan biri sayılır.

Etiraf edək ki, müasir informasiya texnologiyası polisə də ictimai asayişin qorunması və cinayətkarlıqla mübarizə sahəsində geniş imkanlar yaradıb. Bunun ən bariz nümunəsi kimi, bu yaxınlarda narkotiklərin qanunsuz dövriyyəsinə qarşı ictimaiyyətə edilən çağırışa cavab olaraq sosial şəbəkə hesablarımıza göndərilən məlumatlar sayəsində narkotacirlərin yaxalanmasını yada sala bilərik. Yeri gəlmişkən, narkotik təhdidinə qarşı "ictimai müqavimət" elə indi də davam edir.

Narkotik alverçiləri bu sosial platformalardan istifadə etməklə özlərinin virtual aləmdə "görünməz" ola biləcəyini düşünsələr də, məhz cəmiyyətin polisə dəstəyi sayəsində hər gün daxil olan məlumatlar əsasında onlar ifşa olunurlar. Atalarımızın dediyi kimi, el gücü sel gücünə çevrilir.

Ancaq bu proses birtərəfli deyil, yəni polis sosial şəbəkələrdən yalnız ictimai asayişin qorunması və cinayətkarlıqla mübarizə kimi "öz marağından" irəli gələn məsələlərin həlli ilə məşğul olmur. Daha çox vətəndaş müraciətlərinin cavablandırılması, onların üzləşdikləri problemlərə operativ müdaxilə etmək üçün əlverişli bir platforma kimi istifadə edilir.

Bu gün nəinki polisin fəaliyyəti barədə - xidmətə qəbul olma, şikayət, etiraz, təşəkkür, hüquqi yardım alma kimi ən müxtəlif







məsələlərlə bağlı istənilən şəxs polisin sosial şəbəkələrdəki səhifələrinə yazır.

Məsələn, ötən il başlayan pandemiyanın ilk vaxtlarında, 4 ay ərzində Nazirliyin təkcə feysbuk səhifəsinə daxil olmuş 9 min müraciət cavablandırılıb. Həmin ərəfədə istifadəçilər əsasən karantin qaydaları ilə bağlı suallarla müraciət ediblər. Hazırda isə Daxili İşlər Nazirliyinin çoxminli auditoriyaya malik instaqram, feysbuk, teleqram, yutub platformalarından gün ərzində yuxarıda qeyd etdiyimiz məzmunlu minimum 200-250 müraciət daxil olur ki, onların cavablandırılması, aidiyyəti üzrə yönləndirilməsi həyata keçirilir.

Bu, polislə vətəndaş arasında birbaşa qurulan körpünün, bağlantının rəqəmlə ifadəsini, eyni zamanda, polisin hadisələrə sosial şəbəkələr üzərindən anında müdaxiləsinin riyazi əmsalını əks etdirir. Biz hələ vətəndaş müraciətlərinə qanunvericiliklə müəyyən edilmiş digər hallarda baxılması qaydaları çərçivəsində görülən işlərdən bəhs etmədik.

Zənnimizcə, bu qədəri belə polisin vətəndaş müraciətinə həssas münasibəti barədə yetərincə aydın təsəvvür yaradır.

*R.Mehtiyev*

# Xilaskarları yaxındaydı...

**Bu gün dövlət və şəxsi mülkiyyətin, asayişin etibarlı qorunmasından söhbət gedəndə ilk növbədə yada düşən mühafizə polisi olur.**

Öz vəzifə borcunu yerinə yetirən Azərbaycan Polisinin bu strukturu təkcə mühafizə etmir, həmçinin cinayətkarlıqla mübarizə aparır, ictimai asayişi qoruyur. Xüsusən də son zamanlar əhalinin evlərinin, mülklərinin mühafizə olunması üçün polisə üz tutmaları ondan xəbər verir ki, polis vətəndaşların inamını, etibarını qazanıb və ən ümdəsi özünü sevdirməyi bacarıb.

Əldə olunan uğurlar, yüksək göstəricilər onu deməyə əsas verir ki, mühafizə polisi qarşıya çıxan çətinliklərdən qorxmur, müxtəlif vasitələrlə ictimai qaydanı və ictimai asayişi pozanlara, cinayət törədənlərə, cinayətə meyilli olanlara qarşı mübarizə metodlarının dövrün tələblərinə uyğun olaraq daha da gücləndirilməsi, müasir texniki vasitələrdən istifadə bacarığının artırılması, döyüş və peşə hazırlığında yeni-yeni nailiyyətlərin əldə olunması onların əsas hədəfidir.

Bəzən vətəndaşların sıradan yanaşdığı bir fakta polisin fərqli mövqe nümayiş etdirməsi sonradan ictimai rezonansa səbəb olacaq hadisəyə çevrilir. Məhz polisin fərqliliyi də bu xüsusda özünü göstərir.

Elə bugünlərdə Zabrat qəsəbəsindən daxil olmuş həyəcan




siqnalı əsasında avtopatrulda xidmətdə olan Sabunçu Rayon Mühafizə İdarəsinin polis nəfərləri, polis serjantları Elçin Əslanovun və Kamran Əzizovun hadisə yerindən qayıdarkən bir azyaşlının yol kənarında sakit otursa da təlaş içində ətrafındakılara baxması onların marağına səbəb olub. Nə baş verdiyini öyrənmək üçün azyaşlıya yaxınlaşıblar. Bəlli olub ki, babasına aptekdən dərman almaq məqsədilə evdən çıxan uşaq səhvən başqa marşruta minib və nəticədə yolu azıb. Aidiyyəti üzrə rəhbərliyə məruzə edildikdən sonra uşağın valideynlərinin tapılması istiqamətində fəaliyyətə başlayan həmkarlarımız onun yaşadığı ünvanı müəyyən ediblər. Azyaşlı babasına təhvil verilib.

Yeri gəlmişkən, Sabunçu RMİ tərəfindən cari ilin birinci yarımili ərzində 1391 obyekt, o cümlədən 797 vətəndaş mənzili mühafizəyə cəlb olunub. İdarə əməkdaşlarının sayıqlığı nəticəsində 11 obyektdə, o cümlədən 2 mənzildə oğurluğa cəhdin qarşısı alınarkən 4, axtarışda olan 1, ictimai qaydanı pozan 25, 10 digər cinayətlə əlaqədar 11 nəfər saxlanılaraq Rayon Polis İdarəsinə təhvil verilib. Qanunsuz saxlanılan silah-sursatların toplanması ilə bağlı "Makarov" tapançasına və "Kalaşnikov" avtomatına məxsus döyüş patronları, həmçinin 8 ədəd ov tüfənginə məxsus 12 kalibrli "sterlinq" patronu aşkar edilib.

Narkotiklə mübarizə tədbirləri nəticəsində iki fakt üzrə 2 nəfərin saxlanılması, həmçinin 3 intihara cəhdin qarşısının alınması təmin edilib.

*Teymur Əlizadə,*
*polis mayoru*

# VƏTƏNƏ QƏLƏBƏ İLƏ DÖNDÜ

***Bugünlərdə Finlandiyanın Tampere şəhərində yeniyetmə və gənclər arasında keçirilən karate üzrə Avropa çempionatı başa çatıb.***




DİN-in İdman Cəmiyyətinin yetirməsi Əminağa Quliyev 18-21 yaşadək gənclərin kumite yarışında 60 kiloqram çəki dərəcəsində bütün rəqiblərinə qalib gələrək növbəti dəfə Avropa çempionu adını qazanıb.



Onun ilk rəqibi portuqaliyalı Jose Xavier olub. Ona asanlıqla qalib gələn idmançımızın növbəti rəqibi rusiyalı Maksim Krasnov da məğlubiyyətlə barışıb. İtaliya idmançısı da Əminağanın qarşısında tab gətirə bilməyib. Növbəti qələbədən sonra Ə.Quliyev bosniyalı Pavle Dujakoviçlə ½ finalda üz-üzə gəlib və onu 3:2 hesabı ilə məğlub edərək finala vəsiqə qazanıb. Finalda qardaş Türkiyənin təmsilçisi Burak Özdəmirə qalib gələn idmançımız növbəti dəfə Avropa çempionu olub.

Qeyd edək ki, 2 qat Avropa çempionu Əminağa Quliyevi bu turnirə **DİN İdman Cəmiyyətinin Fiziki hazırlıq şöbəsinin rəisi, polis polkovnik-leytenantı, əməkdar məşqçi Elnur Həsənov** hazırlayıb.

*Ruslan Vəliyev,*
*polis baş leytenantı*

# Oğru qonşusu imiş



**Sabunçu RPİ 15-ci Polis Bölməsinin əməkdaşları tərəfindən həyata keçirilən uğurlu əməliyyat zamanı oğurluq hadisəsinin üstü "isti izlər"lə açılıb.**

Belə ki, daxil olmuş məlumat əsasında **bölmə rəisi, polis polkovnik-leytenantı Fəxrin Bektaşi** işi nəzarətə götürüb və təcrübəli əməkdaşlardan ibarət əməliyyat-axtarış qrupu yaradılıb. Oğurluqda şübhəli bilinən Təranə adlı şəxs saxlanılıb.

Müəyyən edilib ki, oğurluq əməli törədərək vətəndaşa maddi ziyan vuran Təranə zərərçəkmişin qonşusu imiş. O, Orxan Əsədovun nənəsinin evdə tək olduğunu fürsət bilib, suyun gəlib-gəlməməsini bəhanə edərək mənzilə daxil olub. Yaşlı qadın hamamda suyu yoxlayarkən Təranənin gözü dəhlizdəki paltar dolabının üstündəki çantaya sataşıb. O, çantadan içərisində 183 manat, metro kartı və şəxsiyyət vəsiqəsi olan pul kisəsini götürərək mənzildən çıxıb. Ancaq "səvinci" çox çəkməyib.

Əvvəlcə əməlini etiraf etmək istəməyən Təranə bölmənin baş təhqiqatçısı, polis mayoru Rauf Əfəndiyevin ona təqdim etdiyi tutarlı dəlil-sübutlar qarşısında aciz qalıb.

Təqsirkarın qısa zaman kəsiyində ifşa olunmasında, ona dəymiş maddi ziyanın ödətdirilməsində vəzifə borclarını layiqincə yerinə yetirdiklərinə, eləcə də yüksək peşəkarlıq nümayiş etdirdiklərinə görə O.Əsədov asayiş keşikçilərinə minnətdarlıq məktubu ünvanlamağı da unutmayıb.

*T.Əlizadə*

# Köməyə yenə polis çatdı

**Azərbaycan Polisinin "çətin günün dostu" olduğunu bilməyən yoxdur. Qanuni mənafeyi, həyatı, əmlakı, sağlamlığı təhdid altında olan kim olursa-olsun, polis onun köməyinə tələsir, yardıma ehtiyac duyanın yanında olur.**

"Çətin günün dostu" epiteti də məhz əməkdaşlarımızın qayğılara sığal çəkən mərhəməti, əzmkar fəaliyyəti sayəsində yaranıb və ictimai fikirdə özünə yer edib.

Bugünlərdə Bakı şəhərində azyaşlı övladı ilə köməksiz vəziyyətdə qalan əcnəbi qadının həmkarlarımızın diqqət və qayğısı sayəsində sığınacağa yerləşdirilməsi sözlərimizi növbəti dəfə doğrultmuş oldu. Təfsilata varmazdan əvvəl qeyd edək ki, qadının vətəndaşı olduğu ölkənin adı bizə məlum olsa da, yazmağa lüzum görmürük, çünki əsas məramımız əməkdaşlarımızın fəaliyyətinə diqqət çəkməkdir.

Haqqında bəhs edəcəyimiz problem isə Zinura İskandarovanın başına gələnlərdir. O, 2019-cu ildə ölkəmizdə bir il müddətində qalmaq üçün gəlib, lakin qəfil başlayan pandemiyadan sonra dövlət sərhədləri bağlandığına görə geri dönə bilməyib. Aid olduğu ölkənin səfirliyi bir müddət Z.İskandarovanın maddi təminatını qarşılasa da, daha sonra onun sosial vəziyyəti o həddə qədər pisləşib ki, küçələrdə azyaşlı övladı ilə dilənçilik etməyə məcbur olub. O, polislərin də diqqətini Nizami rayonu ərazisində dilənçilik edərkən çəkib.

Məsələni dərhal nəzarətə götürən **Bakı şəhər BPİ İctimai Təhlükəsizlik İdarəsinin Yetkinlik yaşına çatmayanlarla profilaktik işin təşkili bölməsinin rəisi, polis polkovniki İbrahim İsmayılovun** təşəbbüsü ilə uşaqlı qadının sığınacağa yerləşdirilməsi üçün hüquqi prosedur başladılıb. Aparılan müvafiq sənədləşmə işlərindən sonra onlar Nizami Rayon Polis İdarəsinin əməkdaşlarının iştirakı ilə "Təmiz Dünya" Qadınlara Yardım İctimai Birliyinin nəzdində fəaliyyət göstərən mərkəzə təhvil verilib.

Bakı şəhər BPİ-dən aldığımız məlumata görə, digər dövlət qurumları və səfirliklə qarşılıqlı şəkildə iş aparmaqla ana və övladının ölkələrinə qaytarılmasına çalışacaqlar.

*Rəşad Mehtiyev,*
*polis baş serjantı*

# ƏSAS ODUR Kİ, HƏR BİR MÜRACİƏTƏ HƏSSASLIQLA YANAŞILSIN



**“Vətəndaşların müraciətlərinə həssaslıqla yanaşmaq, operativ reaksiya vermək, üzləşdikləri problemlərin həll olunmasında köməklik göstərmək polis əməkdaşlarının həm vəzifə borcudur, həm də qarşımıza qoyulan tələblərdir.”**

Bu fikirləri **Nizami RPİ 23-cü Polis Bölməsinin rəisi, polis polkovnik-leytenantı Emin Çələbiyev** söhbət əsnasında diqqətimizə çatdırdı.

“Əmin-amanlığın bərqərar olunması, ictimai sabitliyin qorunub-saxlanılması, eləcə də vətəndaş məmnunluğunu təmin etmək üçün onlar daima xidmətdədirlər. Yaşadığımız ərazidə sakinlər bölmənin fəaliyyətindən razıdırlar. Aidiyyəti olmasa belə problemimizin həllində polis köməyimizə çatır”,-deyən və narkomaniyaya qarşı qətiyyətli mübarizəyə görə polis əməkdaşlarına təşəkkürünü yazan vətəndaş Natiq Əliyevin məktubu bölmənin fəaliyyəti ilə bağlı deyilənlərdə bələdçimiz oldu. Bəla ilə mübarizədə vətəndaşların da polisə dəstəyini ifadə edən bölmə rəisi bildirdi ki, son dövrlər narkotiklərin qanunsuz dövriyyəsinin, eləcə də istifadəçilərinin sayının sürətlə artması ciddi narahatlıq doğurur və cinayətkarlıqla mübarizədə bu sahəni önə çıxarır. Baş verən cinayətlərə gəlincə, statistikaya nəzər yetirsək, onların ya narkotik vasitələri əldə etmək məqsədilə, ya da onun təsiri altında törədildiyinin şahidi olarıq. Bununla bağlı dövlətin bütün qurumları səfərbər olsa da bəlanın yayılmaqda davam etdiyini, onun ailəvi qırğın silahı kimi bütün yaş hədlərində hər kəsi özündən asılı salmaq gücünə sahib olduğunu ürək ağrısı ilə qeyd edən polis polkovnik-leytenantı E.Çələbiyev gələcək nəsillərin sağlam ruhda böyüməsi üçün maarifləndirmə tədbirlərinin davamlı aparılmasının vacibliyini vurğuladı.

Həmsöhbətim, ümumən, asayiş keşikçilərinin gecəli-gündüzlü fəaliyyətinin məhz vətəndaş məmnunluğuna xidmət etdiyini, illərin və nəsillərin sınağından başıuca çıxan Azərbaycan Polisinin bu gün də ona olan inam və etimadı doğrultduğunu dedi.

*Teymur Əlizadə,*
*polis mayoru*

# Çətənə kolları məhv edilib

**Lənkəran ŞRPŞ-nin** əməkdaşları Liman şəhər sakini, əvvəllər məhkum olunmuş H.Novruzova məxsus həyətyanı sahədən 89, **Göyçay RPŞ-nin** əməkdaşları tərəfindən Qarayazı kənd sakini X.Həsənova məxsus həyətyanı sahədən 33, **Kürdəmir RPŞ-nin** əməkdaşları Tükədi kənd sakini Y.Əzizova məxsus həyətyanı sahədən 17, **Ağsu RPŞ-nin** əməkdaşları Bənəcik kənd sakini S.Nəsrullayevə məxsus həyətyanı sahədən 11, habelə dibçəkdə əkilmiş 2 ədəd kultivasiya yolu ilə yetişdirilmiş çətənə kolları aşkar edərək götürmüşlər.

**Sabirabad RPŞ-nin** əməkdaşları Yaxadəllək kənd sakini E.Xudiyevə məxsus həyətyanı sahədən kultivasiya yolu ilə yetişdirilmiş 13 ədəd çətənə kolu, yaşadığı evə baxış zamanı isə 1 kiloqram 145 qrama yaxın marixuana, **Xaçmaz RPŞ-nin** əməkdaşları Çarxı kənd sakini X.Səmədova məxsus həyətyanı sahədən 38 ədəd çətənə kolu, Köhnə-Xaçmaz kənd sakini A.Əzməmmədova məxsus həyətyanı sahədən kultivasiya yolu ilə yetişdirilmiş 33 ədəd çətənə kolu və 8 kiloqrama yaxın marixuana, **Şəki ŞRPŞ-nin** əməkdaşları şəhər sakini İ.Həmidova məxsus həyətyanı sahədən kultivasiya yolu ilə yetişdirilmiş çətənə kolu, yaşadığı evə baxış zamanı 345 qram marixuana, **Şabran RPŞ-nin** əməkdaşları N.Dostəliyevin yaşadığı evin həyətyanı sahəsindən kultivasiya yolu ilə yetişdirilmiş 45 ədəd çətənə kolu və 2 kiloqrama yaxın qurudulmuş marixuana aşkar edərək götürmüşlər.

**Zaqatala RPŞ-nin** əməkdaşları tərəfindən Tala kəndi ərazisində çəkisi 2 ton 710 kiloqram olan 8468, **İsmayıllı RPŞ-nin** əməkdaşları tərəfindən Cülyan kəndinin meşə zolağında yabanı halda bitmiş, çəkisi 1 ton 565 kiloqram olan 1711 ədəd yabanı halda bitmiş çətənə kolları aşkar edilərək məhv edilmişdir.

## Narkomaniya ölüm yarğanıdır. Bu yarğandan atlananlar qəhrəman hesab olunurlar



# GERİYƏ DÖNÜŞ YOXDUR

Ekspertlər qadınların narkotikdən istifadə etməsini aşağıdakı səbəblərlə əlaqələndirirlər: ilk başda depressiya gəlir, sonra emosional qeyri-sabitlik və şəxsiyyət kompleksləri: məsələn, özünə inamsızlıq, özgüvənin olmaması. Yaxud da kişi ilə müqayisədə özünü təsdiq etmək və gender baxımından bərabər olmaq.

Kişinin narkotikdən istifadə etməsi tənqidə məruz qalsa da, qadının ondan asılılığı ailə müqəddəsliyinin, dayaqlarının məhvi kimi qiymətləndirilir. Mütəxəssislər qadın narkomaniyasının həm psixoloji, həm də sosial tərəfini araşdırdıqdan sonra belə qənaətə gəliblər ki, qadınların narkotik asılılığı, kişi ilə müqayisədə xüsusilə təhlükəlidir. Çünki qadın sosial mədəniyyətin ötürülməsinin "genetik aspektini" daşıyır.

Narkotacirlər arasında qadınların olması cəmiyyət üçün həyəcan təbilidir.

Narkotik səbəbindən - şəxsiyyətin deqradasiyaya uğramış qadının gələcəyin əsgərini, həkimini, müəllimini, polisini yetişdirməsi qeyri-mümkündür. Son zamanların statistikası çox qorxuncdur. Hər il narkoman qadınların sayı artır. Təəssüf ki, bu gün narkotiklərlə bağlı tutulan 5 nəfərdən 2-si qadındır.

Amerikalı elm adamları qadınların narkotikdən asılılığını ağrıkəsicilərin qəbulu ilə əlaqələndirirlər. Bir çox alimlərin fikrinə görə, kişilərin praktiki baxımından ağrıkəsicilərdən asılılığı yox dərəcəsindədir.



Mütəxəssislər deyir ki, qadın orqanizmi narkotikə daha tez adaptasiya olunur və zəhəri qəbul edir. Tanınmış narkoloq Vasili Roşanın qeyd etdiyi kimi, narkomaniyaya düçar olmuş qadının, kişidən fərqli olaraq, onunla təkbaşına mübarizə aparmaq şansı yoxdur. "Buna görə qadının spirtli içki aludəçiliyi və narkomaniyası praktiki olaraq müalicə edilmir", - deyir Roşa.

Bəzi mütəxəssislər, qadınları narkotikdən istifadəyə məcbur edən səbəb kimi orqanizmlərində baş verən xüsusi halı qeyd edirlər. Onların sözlərinə görə, psixoaktiv maddələrdən istifadə edən qadınlarda sürətli asılılıq yaradan estrogen hormonudur. Hətta bir dəfə narkotik maddə qəbul edən zərif cinsin nümayəndəsində narkomaniyanın formalaşmasını təşviq edən hormonal proses baş verir.

Təəssüflər olsun ki, qayğısız bir həyat sevənlər, ölümcül riskə həvəslə qatılırlar. Problemlərdən yaxa qurtarmağa çalışan narkoman qadınlar, "dönüş biletinin" onlara baha başa gələcəyini belə düşünmədən özlərini çıxılmaz vəziyyətə salırlar.

Yeri gəlmişkən, ***DİN Baş Narkotiklərlə Mübarizə İdarəsinin 7 ay ərzində keçirdiyi əməliyyatlar zamanı narkotiklərin qanunsuz dövriyyəsini həyata keçirən 3101 nəfər saxlanılıb ki, onlardan 71-i qadındır.***

*Ruslan Vəliyev,*
*polis baş leytenantı*

# Koronavirus xəstələri saxlanılıb

Karantin rejimi tələblərinin təmin edilməsi, koronavirus infeksiyanın ölkə ərazisində yayılmasının və törədə biləcəyi ağır fəsadların qarşısının alınması məqsədilə daxili işlər orqanlarının əməkdaşları paytaxt ərazisində, eləcə də bölgələrdə nəzarət–profilaktik tədbirləri davam etdirirlər.

Avqust ayının 16-dan 24-dək olan müddətdə polis əməkdaşları tərəfindən 50 nəfər aktiv koronavirus xəstəsi ictimai yerlərdə aşkar edilərək saxlanılıb. İzahedici söhbətlər aparıldıqdan sonra tibbi prosedurlar gözlənilməklə onlar yaşadıqları ünvanlara qaytarılıb və bu barədə müvafiq səhiyyə qurumları məlumatlandırılıb.

Ev şəraitində müalicə təyin edilməsinə baxmayaraq, yaşayış yerini tərk edən 10 nəfər barəsində isə Cinayət Məcəlləsinin 139-1.1 (epidemiya əleyhinə və karantin rejimlərinin pozulması) maddəsi ilə cinayət işi başlanılıb.

*Natiq Cavadov,*
*polis mayoru*

# Partlayıcı vasitə zərərsizləşdirilib



Xocavənd Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən partlamamış sursatların aşkar edilməsi istiqamətində profilaktiki tədbirlər mütəmadi olaraq davam etdirilir.

DİN-in Mətbuat Xidmətinin Bərdə regional qrupundan verilən məlumata görə, Xocavənd RPŞ-nin əməkdaşları xidməti fəaliyyətini yerinə yetirərkən rayonun işğaldan azad edilmiş Hadrut qəsəbəsi ərazisindəki evlərdən birinin həyətində “M-85” markalı bomba aşkar ediblər. Həmin ərazi dərhal nəzarətə götürülüb və aşkar edilmiş partlayıcı vasitənin zərərsizləşdirilməsi üçün Minatəmizləmə Agentliyinin əməkdaşlarına məlumat verilib. Bomba zərərsizləşdirildikdən sonra ərazinin təhlükəsizliyi təmin edilib.

# ƏMƏLİYYAT UĞURLA NƏTİCƏLƏNDİ

**Nəqliyyatda Baş Polis İdarəsi** əməkdaşlarının Suraxanı dəmir yolu stansiyasının ərazisində keçirdikləri əməliyyat tədbiri nəticəsində Bakı şəhər sakini, əvvəllər məhkum olunmuş V.İslamov saxlanılmışdır. Ondan nömrəsi silinmiş “AKM” markalı avtomat götürülmüşdür.

◆◆◆

**Suraxanı RPİ 33-cü Polis Bölməsi** əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat tədbiri nəticəsində Zığ qəsəbəsi ərazisində yaşayan, əvvəllər məhkum olunmuş T.İsmayılovun evinə baxış zamanı oradan 1 kiloqram 799 qram heroin, 3,5 qramdan artıq metamfetamin və elektron tərəzi aşkar edilərək götürülmüşdür.

◆◆◆

**Nəsimi RPİ 22-ci Polis Şöbəsi** əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat tədbiri nəticəsində narkotiklərin qanunsuz dövriyyəsində şübhəli bilinən K.Mustafayev saxlanılmışdır. Şəxsi axtarış zamanı ondan heroin və metamfetamin aşkarlanmışdır. Davam etdirilən tədbirlərlə onun yaşadığı evə baxış zamanı oradan 550 qram metamfetamin aşkar edilərək götürülmüşdür.

◆◆◆

**Binəqədi RPİ 6-cı Polis Bölməsi** əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbiri nəticəsində Cinayət Məcəlləsinin 234-cü maddəsi (Qanunsuz olaraq narkotik vasitələri, psixotrop maddələri və ya onların prekursorlarını hazırlama, istehsal etmə, əldə etmə, saxlama, daşıma, göndərmə və ya satma) ilə axtarışda olan İ.İbrahimov saxlanılmışdır. Ətrafında aparılan tədbirlərlə onun müxtəlif vaxtlarda 3 evdən pul, qızıl-zinət və məişət əşyaları oğurlaması da müəyyən edilmişdir.

◆◆◆

**Zaqatala RPŞ** əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat tədbiri nəticəsində Qazangül kənd sakini, əvvəllər məhkum olunmuş S.Cəfərovun yaşadığı evə baxış zamanı oradan 4 kiloqramdan artıq marixuana aşkar edilərək götürülmüşdür.

◆◆◆

**Tərtər RPŞ-yə** avqustun 23-də bir nəfərin şəhər sakini Ə.Nazarovanı döyüb 800 manatını alması barədə məlumat daxil olmuşdur.

Polis əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində quldurluq əməlini törətməkdə şübhəli bilinən həmyerlisi S.Əlizadə müəyyən edilərək saxlanılmışdır.

◆◆◆

**Qazax RPŞ** əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbiri nəticəsində avqustun 22-də rayon sakini R.Əlirzayevə və S.Mansurova bıçaqla, K.Məmmədovun isə ayaq nahiyəsinə odlu silahla xəsarət yetirməkdə şübhəli bilinən şəhər sakini E.Hüseynov saxlanılmışdır. Ondan nömrəsi silinmiş “Makarov” markalı tapança və patron götürülmüşdür.

*Natiq Cavadov,*
*polis mayoru*

## Avqust ayının 18-dən 24-dək olan müddət ərzində

- Respublikanın daxili işlər orqanları tərəfindən, ötən həftə ərzində 245 cinayətin üstü “isti izlər”lə açılmışdır.
- Əvvəlki dövrlərdən bağlı qalmış 40 cinayətin açılması təmin olunmuşdur.
- Axtarışda olduğuna görə ümumilikdə 257, o cümlədən borclu şəxs qismində axtarışda olan 160 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilmişdir.
- Avtomobil yollarında 12 yol-nəqliyyat hadisəsi baş vermiş, nəticədə 15 nəfər ölmüş, 1 nəfər xəsarət almışdır.
- Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 176 fakt müəyyən edilmişdir.

POLİS qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.
REDAKTOR: HAFİZ TƏMİROV
Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 9470
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30
Çapa imzalanmışdır 16:00
Qiyməti 40 qəpik